


# BMT-NİN ÖLKƏ ÜZRƏ İLLİK HESABATI

AZƏRBAYCAN | 2021

# MÜNDƏRİCAT


Ön Söz — 2

BMT-nin Ölkə üzrə İdarə Heyəti — 3

Əsas inkişaf tərəfdaşları — 3

1-ci fəsil: Ölkə daxilində əsas hadisələr və regional kontekst — 4

2-ci fəsil: Əməkdaşlıq Çərçivəsi vasitəsilə BMT-nin Azərbaycandakı nümayəndəliyinin milli inkişaf prioritetlərinə göstərdiyi dəstək — 5

2.1. Əməkdaşlıq Çərçivəsinə aid nəticələrin xülasəsi — 5

2.2. Əməkdaşlıq Çərçivəsinin prioritetləri, nəticələri və məhsulları — 7

1-ci prioritet sahə: Həssaslığı azaldan və dayanıqlılığı təmin edən inklüziv artım — 7

2-ci prioritet sahə: Dövlət və sosial xidmətlərin daha yaxşı göstərilməsi üçün daha güclü institutlar — 8

3-cü prioritet sahə: Ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi ilə mübarizə — 15

4-cü prioritet sahə: Qadın və qızların səlahiyyətlərini artıran və gender bərabərliyinə əsaslanan cəmiyyət — 17

“Heç kəsi kənarda qoymamaq” vədi üzrə ümumi irəliləyiş — 18

2.3. Tərəfdaşlığa dəstək və 2030-cu il gündəliyinin maliyyələşdirilməsi — 19

2.4. BMT-nin birlikdə daha çox və daha yaxşı çalışaraq əldə etdiyi nəticələr: BMT-nin aktuallığı, effektivliyi və səmərəliliyi — 20

2.5. Maliyyə məsələlərinin xülasəsi və vəsaitlərin səfərbər olunması — 22

3-cü fəsil: BMT-nin Ölkə üzrə İdarə Heyətinin 2022-ci ildə diqqət göstərəcəyi əsas sahələr — 23

İxtisarlar siyahısı — 23


# ÖN SÖZ



Dünyanın digər ölkələrində olduğu kimi, 2021-ci il Azərbaycan üçün də cəmiyyətin bütün təbəqələrinin COVID-19-un zərərli səhiyyə və sosial-iqtisadi fəsadları ilə üzləşdiyi çətin il olub. Pandemiyaya əlavə olaraq, münaqişədən sonra üzə çıxan çətinliklər ölkənin bir çox insanlarına təsir göstərib. Həmin çağırışlar qarşısında, BMT ailəsi və Azərbaycan hökuməti insanların həyatını yaxşılaşdırmaq və “heç kəsi kənarda qoymamaq” kimi 2030-cu il gündəliyinə aid vədi həyata keçirmək üçün 2021-2025-ci illər üzrə Əməkdaşlığa dair Çərçivə sənədimizi platforma kimi istifadə edib. Donor və tərəfdaşların səxavətli dəstəyi ilə, biz 2021-ci ildə geniş məqsədlərimizə doğru gözəçarpan irəliləyişə nail olmuşuq.

COVID-19-a cavab tədbirlərimiz çərçivəsində, BMT-nin Azərbaycandakı nümayəndəliyi təxminən 1.2 milyon fərdi mühafizə geyimi və tibbi avadanlığın paylanmasına köməklik göstərib. Biz yoluxmanın qarşısının alınması və onun nəzarətdə saxlanması, peyvənd və keyfiyyət təminatı məsələlərində 13 mindən artıq tibb işçisinin bilik və bacarıqlarının artırılmasına yardım etmişik. Biz həmçinin yoluxmanın riskləri və pandemiya zamanı necə sağlam qalmaq barədə məsləhətlərdən ibarət ismarışları 1.5 milyondan artıq insana çatdırmışıq. Münaqişədən sonrakı bərpa üzrə görülən işlərə gəldikdə, biz münaqişədən zərər çəkmiş ərazilərdə yaşayan 23 min insana, o cümlədən müəllimlər, məktəb psixoloqları, valideynlər, gənclər və uşaqlara əqli sağlamlıq və psixo-sosial dəstəyə dərhal çıxışını əldə olunmasında yardım göstərmişik. Bundan başqa, ilkin səhiyyə xidmətlərinin göstərilməsi üçün 60 tibb müəssisəsinin imkanlarını daha da təkmilləşdirmişik. Həmçinin 2021-ci ildə, biz “Minatəmizləmə fəaliyyəti haqqında” qanunun və “Milli Minatəmizləmə Standartlarının” layihələndirilməsinə yardım etmişik. Əlavə olaraq, biz 33,665,852 kvadrat metrlik ərazinin minalardan təmizlənməsi və 21 mindən artıq mina və partlamamış sursatın zərərsizləşdirilməsində Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə dəstək vermişik. Gördüyümüz tədbirlər sayəsində, münaqişənin təsirinə məruz qalmış 44 min insana təxirəsalınmaz yardımın göstərilməsi ilə yanaşı təxminən 86 min insan partlayıcı sursatlarla bağlı risklər barədə öz biliyini artırıb.

Qazanc imkanlarının yaxşılaşdırılması öhdəliyimizə sadiq olaraq, 26 min nəfərə, o cümlədən gənclər, əlilliyi olan şəxslər və qaçqınlara əmək bazarına daxil olmalarına kömək etmək üçün yeni bacarıqlara dair təlimlərin təşkilinə yardım göstərmişik. Bundan əlavə, biz ölkənin yeddi rayonunda məktəbəqədər və inklüziv təhsilin genişləndirilməsinə nail olmuşuq. BMT həmçinin məlumatların toplanması və təhlilinə dair milli proseslərə, o cümlədən üçüncü Könüllü Milli Hesabatın tərtib olunmasına və “Azərbaycan gəncliyi 2017–2021-ci illərdə” Dövlət Proqramının qiymətləndirilməsinə dəstək göstərib. Əlavə olaraq, biz iqlim tədbirlərinə aid bir sıra mühüm sənədlərin, o cümlədən ölkənin Milli Uyğunlaşma Planının və hidro-xlor-ftor-karbonların tədricən istifadədən çıxarılması üzrə milli strategiyanın hazırlanmasında hökumətə dəstək vermişik. Təxminən 40 min hektarlıq əkin sahəsində dayanıqlı kənd təsərrüfatı təcrübəsinin tətbiqində fermerlərə yardım edərək, BMT torpaq və suyun daha dayanıqlı idarə edilməsinə öz töhfəsini verib. Yeni texnologiya vasitəsilə qədim su sistemlərini reabilitasiya edən “Kəhrizlərin bərpası” layihəsi 2021-ci il üzrə Qlobal Enerji Mükafatına layiq görülüb.

Gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi üzrə Milli Tədbirlər Planlarının tərtib olunması və BMT-nin Təhlükəsizlik Şurasının 1325 saylı qətnaməsinin icrasına da dəstək göstərilib. Dörd yeni yerli şirkət “Qadınların səlahiyyətləndirilməsi prinsipləri” imzalamaqla iş yerində, əmək bazarında və icmalarda qadınların bacarıqlarının gücləndirilməsi öhdəliyini götürüblər. Qadın və qızlara qarşı zorakılığa son qoymaq məqsədilə göstərdiyimiz birgə səylərin bir hissəsi kimi, BMT “Qadınlara qarşı zorakılığa son” şüarı yazılmış narıncı formada premyer liqanın oyununa çıxmış “Neftçi” futbol komandası ilə tərəfdaşlıq edib. Biz həmçinin gender bərabərliyi və gender əsaslı zorakılığın qarşısının alınmasını təşviq edən ismarışları ənənəvi və sosial media vasitəsilə təxminən 700,000 insana çatdıran yerli səviyyədə tanınmış şəxslərlə əməkdaşlıq etmişik.

Azərbaycanla BMT arasında tərəfdaşlığın 30-cu ildönümünü qeyd edəcəyimiz 2022-ci ilə nikbinliklə nəzər salaraq, biz bu nəticələrə söykənərək, Azərbaycanda qadınların, uşaqların və kişilərin həyatını daha da yaxşılaşdırmaq məqsədilə tərəfdaşlarla işimizi davam etdirəcəyik.

**Vladanka Andreeva**
*BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi*

# BMT-NİN ÖLKƏ ÜZRƏ İDARƏ HEYƏTİ

FAO, ILO, United Nations Human Rights – Office of the High Commissioner, IOM • OIM, UNDRR, UNESCO, UN-HABITAT, UNHCR – The UN Refugee Agency, UNIDO, UNODC – United Nations Office on Drugs and Crime, UNOPS, UN WOMEN, UNECE, unicef, UNFPA, UNDP, UN VOLUNTEERS, World Health Organization, United Nations Information Centre

# ƏSAS İNKİŞAF TƏRƏFDAŞLARI

Azərbaycan Respublikası

Avropa İttifaqı

Almaniya

Hollandiya

Koreya Respublikası

Türkiyə

Birləşmiş Krallıq

Amerika Birləşmiş Ştatları

gef, THE GLOBAL FUND, GREEN CLIMATE FUND, LUKOIL

Bundan əlavə, BMT-nin Azərbaycandakı nümayəndəliyi BMT-nin qurumları, fondları və proqramlarına könüllü qaydada maliyyə töhfəsini vermiş, habelə birləşmiş və tematik fondlara maliyyə yardımını etmiş BMT-nin üzv dövlətlərinə təşəkkürünü bildirir və onları yüksək dəyərləndirir.



*BMT-nin İqlim Dəyişmələri üzrə Qlazqo Konfrasına (COP-26) həsr olunmuş və 2021-ci il oktyabrın 22-də təşkil olunmuş BMT Günü tədbirində DİM-lər üzrə gənc səfir panel iştirakçılarına sual verir.*

*© BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi / 2021*

# 1-Cİ FƏSİL:

## Ölkə daxilində əsas hadisələr və regional kontekst

2021 - Azərbaycanda münaqişədən sonra geniş miqyaslı bərpa işləri ilə yanaşı, COVID-19 pandemiyasına qarşı davamlı cavab tədbirlərinin görüldüyü və bərpa işlərinin aparıldığı il olub.

Qlobal pandemiyanın səhiyyə və sosial-iqtisadi təsiri bu ildə də Azərbaycanda müşahidə edilib. COVID-19-a yoluxma hallarının ümumi sayı 2021-ci ildə artmaqda davam edərək, dekabrın 31-nə kimi 616,649-a çatıb, ümumi ölüm hallarının sayı isə 8,346 və ya yoluxanların 1.35 faizini təşkil edib. COVID-19-a aid milli peyvənd proqramı çərçivəsində peyvəndlərin vurulması 2021-ci il ərzində yüksələn xətlə artıb. Dekabrın sonuna kimi peyvənd oluna bilən əhalinin 51.2 faizinə bir doza, 44.9 faizinə isə iki doza peyvənd vurulub. Hökumət COVID-19-a qarşı səhiyyə və sosial-iqtisadi cavab tədbirlərinin görülməsi məqsədilə 261 milyon manat yaxud təxminən 153 milyon ABŞ dolları ayırıb. Bundan əlavə, Azərbaycan pandemiyaya qalib gəlmək üçün göstərilən regional və qlobal səylərə töhfə verməklə çoxtərəfli əməkdaşlıq, qlobal həmrəylik və ümumi məsuliyyətə öz sadiqliyini nümayiş etdirib.

COVID-19 və azalan neft qiymətləri səbəbindən 2020-ci ildə iqtisadi tənəzzüldən sonra, 2021-ci ildə, real Ümumdaxili Məhsulun (ÜDM-in) artım nisbəti 5.6 faiz, qeyri-neft iqtisadiyyatının inkişafı isə 7.2 faiz təşkil edib. İşsizliyin səviyyəsi son onillik ərzində ən yüksək həddə - 7.2 faizə çatıb. Bu göstərici kişilərlə (6 faiz) müqayisədə, qadınlar arasında (8 faiz) daha çox olub. 2021-ci ildə hökumətin təhsil və sosial müdafiə sahəsində xərcləri artaraq, dövlət büdcəsində, müvafiq olaraq, 11 və 13 faiz təşkil edib.

İqlim tədbirləri və yaşıl artım sahəsində ölkənin öhdəliyinə uyğun olaraq, "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" yeni qanun 2021-ci ildə qəbul olunub. Azərbaycanda həmçinin enerji səmərəliliyinin yaxşılaşdırılması üçün milli tədbirlər planı qəbul edilib. Bundan əlavə, 2021-ci ildə beş Xəzəryanı dövlət (Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistan) Xəzər dənizində ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən istifadə haqqında Əməkdaşlıq Bəyannaməsini imzalayıb.

DİM-lər sahəsində BMT-nin üzv dövlətlərinin əldə etdiyi irəliləyişə dair kəmiyyət xarakterli müstəqil nəşr olan 2021-ci il üzrə "Dayanıqlı İnkişaf" hesabatına görə, Azərbaycan BMT-nin 165 üzv dövləti sırasında 55-ci yerdə qərarlaşıb. 156 ölkə arasında Azərbaycanı 100-cü ölkə kimi göstərən Dünya İqtisadi Forumunun 2021-ci il üzrə "Qlobal Gender Uçurumu" hesabatında qeyd olunur ki, Azərbaycanın gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi öhdəliyinə baxmayaraq, sahələr arasında gender bərabərsizliyi hələ də qalmaqdadır.

Milli, regional və qlobal səviyyədə dəyişikliklər və çağırışlar baxımından dayanıqlı inkişafa dair uzun müddətli perspektivə olan tələbatı nəzərə alaraq, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Prezidentin sərəncamı ilə 2021-ci ilin fevralında təsdiq edilib. 2030-cu il gündəliyi və Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM-lərə) Azərbaycanın öhdəliyinə uyğun olaraq, onillik plan beş milli prioritet sahəni müəyyən edir: "dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat; dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; işğaldan azad olunmuş ərazilərə böyük qayıdış; habelə təmiz ətraf mühit və 'yaşıl artım' ölkəsi". Strateji planların icrası məqsədilə hökumət həmçinin beşillik (2022-2026-cı illər üzrə) Milli Dayanıqlı İnkişaf Strategiyasını hazırlayıb və onun 2022-ci ilin əvvəlində təqdim olunması nəzərdə tutulur. Bundan əlavə, hökumət minalardan təmizlənmə, infrastruktur, iqtisadi və sosial inkişaf, ətraf mühitin dayanıqlığı məsələləri də daxil olmaqla münaqişənin təsirinə məruz qalmış rayonlarda bərpa və yenidənqurma üçün prioritetləri müəyyənləşdirib.




*İlkin səhiyyə xidmətlərinin gücləndirilməsi üçün Şamaxı rayonuna səyyar klinikalar təhvil verilib. © ÜST/ 2021*

# 2-Cİ FƏSİL:

## Əməkdaşlıq Çərçivəsi vasitəsilə BMT-nin Azərbaycandakı nümayəndəliyinin milli inkişaf prioritetlərinə göstərdiyi dəstək

## 2.1. Əməkdaşlıq Çərçivəsinə aid nəticələrin xülasəsi

2021-ci il 2021-2025-ci illəri əhatə edən BMT və Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə sənədinin icrasının birinci ili olub. BMT-nin yeni birgə planlaşdırma və icra mexanizminin çevik xarakterini nümayiş etdirərək, 2021-ci il üzrə əsas prioritetlər həm pandemiya, həm də münaqişədən sonra dayanıqlı və yaşıl bərpa məqsədilə dayanıqlığı təmin edən və qazanc imkanlarının yenidən yaradılmasına əsaslanıb. BMT hökumətin göstərdiyi səylərə, eləcə də Azərbaycanda qadınlar, sülh və təhlükəsizliyə aid gündəliyə dəstək olaraq, münaqişədən sonra bərpa üçün başlanğıc nöqtələrini müəyyən etmək məqsədilə hökumətlə dialoq aparıb. Hökumətin istəyi üzrə, BMT 2022-ci ilin əvvəlində münaqişənin təsir göstərdiyi ərazilərdə "Bərpa ehtiyaclarının birgə qiymətləndirilməsi" məqsədilə müşahidə missiyasını planlaşdırmaq üçün Avropa İttifaqı (Aİ) və Dünya Bankı ilə birgə səylər göstərib.

Eyni zamanda, 2030-cu ilin gündəliyinə nail olmaq məqsədilə Azərbaycana lazım olan hərtərəfli dəyişikliklərə diqqət yetirərək, gücləndirilmiş sosial xidmət sistemlərinə, torpaq və suyun dayanıqlı idarə edilməsinə, iqlim dəyişmələrinə uyğunlaşmaya və gender bərabərliyinə dəstək vermək üçün də sərmayələr yatırılıb. BMT-nin dəstəyi insan kapitalının formalaşdırılmasına, habelə ən həssas və təcrid olunmuş qrupların, o cümlədən qadınlar, uşaqlar, gənclər, əlilliyi olan şəxslər və yaşlıların həyatını dəyişmək məqsədini daşıyıb.

Əsaslandırılmış strategiya və siyasətlərin inkişaf etdirilməsi və icrasına dəstək məqsədilə BMT məlumatların toplanması, təhlili və emalında hökumətə yardım göstərib. "DİM-lər üçün Məlumatların Dezaqreqasiyası" məlumat kitabçasının hazırlanması da daxil olmaqla, BMT Dövlət Statistika Komitəsinə (DSK) ölkədə DİM-lərə aid məlumatları təkmilləşdirmək istiqamətində dəstəyi davam etdirib. "Heç kəsi kənarda qoymamaq" prinsipinə diqqət yetirərək, DİM-lərə aid məlumatlar sahəsində vətəndaş cəmiyyəti təşkilatları (VCT), akademik dairələr və araşdırma mərkəzləri ilə əməkdaşlığın genişləndirilməsi üçün səylər göstərilib.

COVID-19-un yaratdığı çətinliklərə baxmayaraq, BMT-nin 13 qurumu 2021-ci ildə 25.7 milyon ABŞ dolları dəyərində fəaliyyət həyata keçirib.



*Üç uşaq anası məcburi köçkün, 29 yaşlı Aynurə Həsənova Tərtər rayonunun Həsənqaya kəndində həyat yoldaşı və qayınatası ilə yaşayır. O, BMT QAK-ın fövqəladə yardım ayırdığı ailələrdən biridir.*

*© BMTQAK/ Elsevər Ağayev/ 2021*




*BMT proqramlarının Azərbaycanda coğrafi əhatəsi: 2021-ci ildə BMT-nin rayonlar üzrə həyata keçirdiyi fəaliyyətlərin sayı*




*2021-ci ildə BMT-nin DİM-lərə yatırdığı sərmayələr (ABŞ dolları ilə)*

# COVID-19 PANDEMİYASINA AİD CAVAB TƏDBİRLƏRİ

## MİLLİ PEYVƏND STRATEGİYASI

uşaq və hamilə qadınlara diqqət yetirilərək təkmilləşdirib (UNİCEF, ÜST)

## 13,000 TİBB İŞÇİSİ

yoluxmanın qarşısının alınması və ona nəzarət, risklərin kommunikasiyası, peyvənd, bioloji təhlükəsizlik, təcili tibbi xidmətlər və reanimasiya sahəsində öz bilik və bacarıqlarını artırıb (BMTİP, UNİCEF, ÜST)

## 1.2 MİLYON TİBBİ AVADANLIQ

COVID-19-dan qorunmaq və müalicə olunmaq üçün paylanılıb (BMqT,BMTİP, ÜST)

## 1.5 MİLYON İNSANA

risklər barədə mesajlar çatdırılıb (BMqT,UNİCEF)

# MÜNAQİŞƏDƏN SONRAKI DÖVRDƏ CAVAB TƏDBİRLƏRİ

## 23,000 İNSAN

Münaqişədən zərər çəkmiş yerlərdə yaşayan 23,000 insanın əqli sağlamlığı qiymətləndirilib, onlara psixoloji-sosial dəstək göstərilib (UNİCEF)

## 60 SƏHİYYƏ MÜƏSSİSƏSİ

münaqişədən zərər çəkmiş yerlərdə ilkin tibbi xidmətləri göstərmək üçün dəstəklənib (ÜST)

## 34 KVADRAT KİLOMETR

torpaq minalardan təmizlənib, 21,000 mina və partlamamış mərmi zərərsizləşdirilib (BMTİP)

## MİNA FƏALİYYƏTİNƏ DAİR QANUN

və standartlar layihə formasında tərtib edilib (BMTİP)

## 86,000 ŞƏXS

80 icmada yaşayan və əksəriyyəti yeniyetmə olan 86,000 şəxs partlayan mərmi riskləri barədə öz biliklərini artırıb (UNİCEF)

## 44,000 ŞƏXS

Münaqişənin təsirinə məruz qalmış və əvvəlki təmas xəttinə yaxın yaşayan 44,000 şəxs fövqəladə yardım alıb (BMT QAK)

## RƏQƏMSAL İNFRASTRUKTUR

münaqişənin təsirinə məruz qalmış Füzuli və Tərtər rayonlarında bərpa olunub (BMTİP)

## ÜÇ İCMA RESURS MƏRKƏZİ

Füzuli-Horadiz, Ağcabədi və Tərtər rayonlarında insanlara biznes məsləhətləri, hüquqi və psixoloji yardım göstərmək üçün yaradılıb (BMTİP)

## 2.2. Əməkdaşlıq Çərçivəsinin prioritetləri, nəticələri və məhsulları

**1-ci prioritet sahə: Həssaslığı azaldan və dayanıqlılığı təmin edən inklüziv artım**

***Nəticə 1.1*** *– Kənarda qalan insanlar əmək bazarının gələcək yönümlü transformasiyasını və layiqli əməyə çıxış imkanını əhatə edən şaxələndirilmiş və innovativ iqtisadiyyatda iştirak edir və ondan yararlanır*




*2021-ci ildə DİM-lər üzrə vəsaitlərin ayrılması*

**Büdcə**
**$ 9,946,821**

**Xərclər**
**$ 7,883,258**

**İcra dərəcəsi**
**79%**

*2021-ci il üzrə maliyyə vəziyyətinin qısa təsviri*

Ümumi ölkə təhlilində göstərildiyi kimi, gənc kişi və qadınlar, məcburi köçkünlər və ya qayıtmağa hazırlaşan şəxslər, qeyri-rəsmi əmək fəaliyyəti ilə məşğul olanlar, kiçik fermerlər və məsafədən işləmək imkanı olmayan insanlar (öz işinin xüsusiyyətinə görə və ya texnoloji bacarıqların yetməməsi səbəbindən) digərləri ilə müqayisədə qazanc imkanlarının itirilməsi qarşısında daha zəifdirlər. Bu nəticə çərçivəsində, BMT qurumları **məhsuldarlığı gücləndirməklə** yanaşı həmin qruplara və əhalinin digər həssas təbəqələrinə əsas fayda verən **inklüziv artıma** nail olmaq üçün öz tərəfdaşları ilə işləri davam etdirib. Ölkənin COVID-19 və münaqişədən sonra iqtisadi bərpa planına uyğun olaraq, BMT-nin Azərbaycan nümayəndəliyi diqqətdən kənarda qalan qrupların iqtisadi iştirakını bərpa edən və genişləndirən **sosial yeni mikro, kiçik və orta müəssisələrin (MKOM-ların) və sosial müəssisələrin** qurulmasının təşviqini davam etdirib.

BMT həmçinin **gələcək işə götürənlərin tələbatlarına cavab verən bacarıqların** gənclər və xüsusən də, qadınlar tərəfindən mənimsənilməsini, o cümlədən qeyri-rəsmi sektorda çalışan işçilər, kənd yerlərində və münaqişənin təsir göstərdiyi ərazilərdə yaşayan şəxslər üçün qazanc yerlərinin itirilməsi riskini azaldan **yeni gəlir imkanlarını təmin etmək üçün** fərdi bacarıqların formalaşdırılmasını dəstəkləmək məqsədilə ekspert biliklərindən və ən yaxşı təcrübədən ibarət şəbəkəsini cəlb edib.

Əmək bazarı təsisatların, o cümlədən dövlət məşğulluq xidmətlərinin bacarıqları ən həssas təbəqələr, işsizlər və işə götürənlərə daha **inklüziv və əlçatan xidmətləri** göstərmək məqsədilə innovativ vasitələrlə gücləndirilib. "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq pakt, "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiya və Beynəlxalq Əmək Təşkilatının Konvensiyası da daxil olmaqla, əmək fəaliyyəti hüququ ilə bağlı **milli əmək statistikası və beynəlxalq standartlar** üçün gücləndirilmiş sistem iqtisadi yanaşmaya istiqamət verib. Çünki bu standartlar iqtisadi şaxələndirmə və innovasiyaların bu müxtəlif qruplara nə dərəcədə fayda verdiyini ölçməyə kömək edir.

Kənd əhalisinin öz gəlir mənbələrini şaxələndirmək və kənd təsərrüfatının müxtəlif sahələrində dayanıqlı şəkildə öz qazancını yaxşılaşdırmaq imkanını təmin etmək üçün BMT-nin Azərbaycan nümayəndəliyi milli tərəfdaşlarla da sıx işləyib.

**623 ŞƏXS**

o cümlədən 372 qadın – ölkə ərazisində sahibkarlıq fəaliyyətinə başlayıb (BMqT, BMTİP)

**26,000 ŞƏXS**

o cümlədən gənclər, əlilliyi olan şəxslər və qaçqınlar - əmək bazarına daxil olmaq üçün bacarıqlar əldə edib (FAO, BMqT, BMTİP, BMT QAK, UNİCEF)

## 19 YERLİ ƏRZAQ İSTEHSALÇI QRUPU

bazarlara çıxışı asanlaşdırmaq üçün yaradılıb (FAO)

## YOL XƏRİTƏSİ

formal iqtisadiyyata keçid üçün tərtib edilib və məşğulluğa əsaslanan iqtisadi bərpa məqsədilə əmək məcəlləsinə dəyişikliklərin edilməsi üçün əmək bazarının altı təhlili hökumətə təqdim edilib (BƏT)

## KƏND TƏSƏRRÜFATI ÜZRƏ MƏSVƏRƏTÇİ XİDMƏTLƏR

fermerlərə maliyyə, əlaqələndirmə və tərəfdaşlıq mexanizmləri, habelə həvəsləndirici üsulları təmin etmək üçün yaradılıb (FAO)

## QLOBAL ƏHƏMİYYƏTLİ KƏND TƏSƏRRÜFATI İRSİ SİSTEMLƏRİ

rayonların aqro-kənd turizm məkranlarına çevrilməsi üçün qurumlararası işçi qrup vasitəsilə təşviq olunub (FAO)

## DƏYƏR ZƏNCİRLƏRİ

yaxşı kənd təsərrüfatı təcrübəsi əsasında iri və kiçik buynuzlu heyvandarlıq, kartof və fındığın yetişdirilməsi sahəsində dəstəklənib (FAO)

**2-ci prioritet sahə: Dövlət və sosial xidmətlərin daha yaxşı göstərilməsi üçün daha güclü institutlar**

***Nəticə 2.1** – Kənarda qalan insanlar Azərbaycanın beynəlxalq öhdəliklərinə uyğun olaraq sosial müdafiə və keyfiyyətli dövlət və sosial xidmətlər üçün gücləndirilmiş milli potensial və idarəçilik strukturlarından faydalanır*

IOM • OIM | UNECE | UNITED NATIONS HUMAN RIGHTS | UNHCR | unicef | UNDP | UNFPA | World Health Organization




*2021-ci ildə DİM-lər üzrə vəsaitlərin ayrılması*

*"Bu cədvəl İkinci Strateji Prioritet Sahə üzrə Nəticə 2.1 və Nəticə 2.2-ni əhatə edir"*

| Büdcə | Xərclər | İcra dərəcəsi |
|---|---|---|
| $13,836,144 | $13,565,201 | 98% |

*2021-ci il üzrə maliyyə vəziyyətinin qısa təsviri*

Ümumi Ölkə Təhlilinə görə, pandemiya və münaqişə həssas qrupların keyfiyyətli dövlət və sosial xidmətlərə çıxışına qeyri-mütənasib təsir göstərib. Məsələn, COVID-19 pandemiyası və 2020-ci ildə hərbi əməliyyatların qızışması nəticəsində məktəblərin bağlanması və məsafədən təhsilə keçid əlilliyi olan uşaqlar üçün təhsilə çıxışı daha da genişləndirmişdi. Bununla yanaşı, məsafədən təhsil əsas texniki resurslara çıxışı çətin olan aşağı gəlirli ailələrin uşaqları üçün müəyyən məhdudiyyətlər yaratmışdı. Bu, **təhsildə struktural bərabərsizliyin** dərinləşməsi ilə nəticələnmişdi. Özünü təcrid tədbirləri nəticəsində, yaşlı şəxslərin dövlət xəstəxanalarında **əsas tibbi xidmətlərə çıxışına** problemlər yaratmışdı. Evdə qalma şəraitində qadın və qızlar üçün **məişət zorakılığı** halları haqqında məlumat vermək, habelə dövlət və qeyri-dövlət mühafizə xidmətlərindən yararlanmaq daha da çətinləşmişdi. Məhkəmə proseslərinin rəqəmsal olmadığı yerlərdə, o cümlədən münaqişənin təsirinə məruz qalmış rayonlarda yaşayan insanlar üçün **ədliyyəyə çıxış** da məhdudlaşmışdı. Bir neçə kənd yerlərində məcburi köçkün həyatını davam edən əhali, xüsusən də, əvvəlcə işğal altında olmuş ərazilərdən olan insanlar təhlükəsizliyə, keyfiyyətli təhsil və səhiyyəyə çıxışla bağlı çətinliklərlə üzləşmiş və onların gəlir əldə etmək imkanları azalmışdı.

2021-ci ildə, BMT-nin Azərbaycandakı nümayəndəliyi həmin bərabərsizliyin sistematik qaydada aradan qaldırılması və keyfiyyətli dövlət və sosial xidmətlərə çıxışın genişləndirilməsi məqsədilə göstərilən COVID-19 və münaqişədən sonrakı bərpa səyləri çərçivəsində məhdudiyyətləri qiymətləndirmək üçün müəyyən tədbirlər həyata keçirib. Həmin tədbirlər həssas qruplara sosial müdafiə, inklüzivlik və həmin xidmətlərə maneəsiz çıxışdan yararlanmaq imkanını yaradaraq, **daha güclü idarəçilik təsisatları və ilkin səviyyədə xidmətlərin göstərilməsinə** yönəlib. Elektron idarəçiliyi genişləndirmək, eləcə də dövlət və sosial xidmətlərin onlayn formatda mövcudluğunu və əlçatanlığını təmin etmək məqsədilə insanların **İKT infrastrukturu barədə biliklərinin və ona çıxışının** artırılmasına xüsusi diqqət yetirilib.

Bu nəticə çərçivəsində, BMT aşağıdakı bir neçə sahəyə diqqətini yönəldib: **təhsil, səhiyyə, sosial müdafiə, elektron idarəçilik və ədliyyəyə çıxış.** BMT həmçinin əsas göstəricilərin və nailiyyətlərin əlçatanlıq, keyfiyyət və adekvatlığı əsas alan "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq pakt, "Uşaq hüquqları haqqında", "Əlillərin hüquqları haqqında" və "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında" Konvensiyalar kimi beynəlxalq insan hüquqları standartlarına, o cümlədən beynəlxalq əmək standartlarına əsaslanmasını təmin edib.

## TƏHSİLƏ ÇIXIŞ

**YEDDİ PEŞƏ MƏKTƏBİ**

artan əmək bazarının tələblərinə cavab vermək üçün müasirləşdirilib (BMTİP)

**MƏKTƏBƏQƏDƏR TƏHSİL**

daha dörd rayonu, inklüziv təhsil isə daha yeddi rayonda səkkiz məktəbi əhatə edib (UNİCEF)

**FƏRDİ MENTORLUQ SXEMİ**

məktəblərdə tələbələrin tədris tələbatlarına və müəllimlərin peşə inkişafına cavab vermək üçün sınaq formasında tətbiq edilib (UNİCEF)

**1,6 MİLYON İNSAN**

rəqəmsal Erkən Uşaqlıq Dövründə İnkişaf üzrə Resurs Mərkəzi vasitəsilə uşaq və ana sağlamlığı barədə məlumatlandırılıb (UNİCEF)

**16 MÜSBƏT VALİDEYNLİK PLATFORMASI**

dörd sınaq rayonda yaradılıb və erkən uşaqlıq dövründə inkişaf, qidalanma, immunlaşdırma, uşaq psixologiyası və təhlükəsizlik sahəsində öz biliyini yaxşılaşdırmaq üçün 8,700 valideyni və tərbiyəçini əhatə edib (UNİCEF)

**435 QAÇQIN GƏNC VƏ UŞAQ**

rəsmi təhsilə çıxış əldə edib (BMTQAK)

**RƏQƏMSAL TƏHSİL VƏ TƏDRİS MƏRKƏZİ**

biznes bilikləri, startap və innovasiyanın idarə edilməsini təşviq etmək üçün 4 tematik modul əsasında yaradılıb (UNECE)

**ALTI RAYONDA 700 MƏKTƏBLİ**

buraxılmış tədrisin bərpa edilməsi istiqamətində dəstək alıb (UNİCEF)

# SƏHİYYƏYƏ ÇIXIŞ

## HAMİLƏ QADINLARA

54,000 dəmir-folik turşu paketləri və əlavələr paylanılıb (UNİCEF)

## 11,000 AİLƏ

o cümlədən yaşı 3-dən aşağı olan 18,000 uşaq və 2,000 hamilə qadın yeni, evlərə baş çəkmə modelindən yararlanıb (UNİCEF)

## 185,000 QADIN

ana südünün vacibliyi haqqında məlumatlandırılıb (UNİCEF)

## ÜÇ SƏYYAR SƏHİYYƏ KLİNİKASI

və iki yolsuzluq nəqliyyat vasitəsi ucqar və əlçatmaz kəndlərdə fəaliyyətə başlayıb (ÜST)

## İLKİN SƏHİYYƏ XİDMƏTLƏRİ MODELİ

pediatr, terapevt və tibb bacıları üçün hazırlanıb və modelin təşviqi üçün təhsil ailə sağlamlıq mərkəzi yaradılıb (ÜST)

## 7,868 İNSAN

QİÇS-lə yaşayan 7,868 insanın (onlardan 30%-i qadın) və vərəm xəstəliyi olan 7,350 nəfərin tibb vasitələrinə çıxışı təmin edilib (BMTİP)

## ÜÇ MİLLİ KLİNİKİ PROTOKOL

Uşaq sağlamlığına aid üç milli kliniki protokol tərtib edilib (ÜST)



***Azərbaycan Tibb Universitetinin tələbələri ÜST-ün icra etdiyi Şamaxı Təqaüdü Proqramı çərçivəsində səyyar klinikalarda əsas tibbi xidmətlər göstərib.***

***© ÜST/ 2021***

# SOSİAL XİDMƏTLƏRƏ ÇIXIŞ

**27,000 YAŞLI İNSAN**

istirahət və tədris xarakterli fəaliyyətlərdən yararlanıb (UNFPA)

**4,800 UŞAQ**

o cümlədən İraq və Suriyadan qaytarılmış, eləcə də cəzaçəkmə müəssisələrində olan uşaqlar təkmilləşdirilmiş sosial xidmətlərdən yararlanıb (UNİCEF)

**UŞAQLARA YARDIM QAYNAR XƏTTİ**

təşviq edildikdən sonra 2020-ci ildə edilmiş 61 müraciətlə müqayisədə 2021-ci ildə müraciətlərin sayı 414-ə çatıb (UNİCEF)

**500 QADIN**

012 860 qaynar xətt vasitəsilə gender əsaslı zorakılıqdan qorunmaq xidmətlərindən istifadə edib (UNFPA)

**10 İCTİMAİ BİNA**

Cənub rayonlarında 10 ictimai bina əlilliyi olan şəxslər üçün əlçatan edilib (BMTİP)

**3,500 ŞƏXS**

əlilliyi olan şəxslərə qərəzli münasibətin aradan qaldırılması kampaniyası çərçivəsində məlumatlandırılıb (BMTİP)

**5,200 ŞƏXS**

– o cümlədən qadınlar, işsizlər, əlilliyi olan şəxslər, yaşlılar, məcburi köçkünlər və qaçqınlar hüquqi yardımdan yararlanıb (BMT İHAK, BMTİP, BMTQAK)

**283 VƏTƏNDAŞ CƏMİYYƏTİ NÜMAYƏNDƏSİ**

və hüquqşünas, onlardan 171-i qadın olmaqla, BMT İnsan Hüquqları mexanizmləri əsasında əsas prinsiplər və başlıca öhdəliklər haqqında öz biliklərini artırıb (BMT İHAK)

**80 VƏTƏNDAŞ CƏMİYYƏTİ TƏŞKİLATI**

gender bərabərliyi, iqlim tədbirləri və sosial sahibkarlıq sahəsində layihələri tərtib və icra etmək bacarıqları əldə edib (BMTİP)

**3,810 YENİYETMƏ VƏ GƏNC**

səkkiz rayonda yerləşən Gənclərin Karyera İnkişafı Mərkəzlərində Gənclər üçün Məşvərət Şuraları tərəfindən COVID-19-un qarşısının alınması, gender bərabərliyi, ətraf mühit məsələləri, sağlam həyat tərzinədair mentorluq dəstəyi alıb (UNİCEF)

**MİQRASİYA ÜZRƏ REGİONAL TƏLİM MƏRKƏZİ**

MDB regionunda təlim və tədqiqat qovşağı hesab edilən Miqrasiya üzrə Regional Təlim Mərkəzi yaradılıb (BMqT)

**YOL XƏRİTƏSİ**

Səyahət məlumatından istifadə edərək Yeni Müəyyən etmək Bacarıqları üzrə Yol xəritəsi tərtib edilib (BMqT, BMT-nin Terrorçuluğa qarşı mübarizə üzrə Ofisi)

**19,000 İNSAN**

100 nəfər yaşlı mütəxəssisin öz bilik və bacarıqlarını ötürmək məqsədilə nəsillərarası təhsil əsasında apardığı kurslarda iştirak edib (UNFPA)

**31 XİDMƏT TƏMİNATÇISI**

zərərçəkənlərin müəyyənləşdirilməsi işinin təkmilləşdirilməsi üçün insan alverinə qarşı mübarizə fəaliyyətləri üzrə təlim keçib (BMqT)

**READMİSSİYA HALLARININ İDARƏ EDİLMƏSİ**

sahəsində hesabatlılıq və şəffaflığı gücləndirən veb əsaslı, təhlükəsiz və istifadəçi üçün rahat İT platforması təqdim edilərək, istismara verilib (BMqT)

## 2-ci prioritet sahə: Dövlət və sosial xidmətlərin daha yaxşı göstərilməsi üçün daha güclü institutlar

***Nəticə 2.2** – Heç kəsi kənarda qoymayan qərarların qəbulu və siyasətlərin hazırlanmasında istifadə üçün keyfiyyətli və vaxtında təqdim olunan məlumatlar mövcuddur və istifadə edilir*

FAO ILO UNITED NATIONS HUMAN RIGHTS IOM • OIM UNESCO UNDP unicef UNFPA World Health Organization




*2021-ci ildə DİM-lər üzrə vəsaitlərin ayrılması*

*"Bu cədvəl İkinci Strateji Prioritet Sahə üzrə Nəticə 2.1 və Nəticə 2.2-ni əhatə edir"*

| Büdcə | Xərclər | İcra dərəcəsi |
|---|---|---|
| $ 1,067,207 | $ 838,058 | 79% |

*2021-ci il üzrə maliyyə vəziyyətinin qısa təsviri*

Statistika cəmiyyətin informasiya sisteminin əvəzolunmaz elementdir və hökumətə iqtisadi, demoqrafik, sosial və ekoloji vəziyyət barədə məlumatlarla xidmət edir. Həssas qrupların rifahı və hüquqlarına diqqətli yanaşma ölkənin onları müəyyən etmək və daha yaxşı təqdim etmək bacarığının təkmilləşdirilməsinə yönəlmiş xüsusi səyləri tələb edir və bu, BMT-nin cari nəticə çərçivəsində diqqət yetirdiyi əsas məsələdir. Bu, həmçinin beynəlxalq insan hüquqları standartları əsasında inkişaf məsələlərinə aid məlumatların daha da təkmilləşdirilməsi üçün İnsan Hüquqları Mexanizmlərinin verdiyi tövsiyələrə də cavab verir. 2021-ci ildə BMT məlumatların toplanması, emalı və təhlilinin rəsmi qərarların verilməsi prosesinə lazımi qaydada daxil edildiyi təqdirdə siyasətin əsaslandırılmasına xidmət edəcəyi mövqeyindən çıxış edərək, dövlət rəsmilərinin təlimləndirilməsi, ev təsərrüfatlarının sorğusunda dezaqreqasiyanın təşviqi, təhlil və sübutlara əsaslanan planlaşdırmanın təkmilləşdirilməsi, əhali ilə bağlı proqnozların gücləndirilməsi kimi müxtəlif tədbirlərdən istifadə edərək, **dezaqreqasiya edilmiş məlumatların toplanması mənbələrini və onların idarə olunmasını yaxşılaşdırmaq** məqsədilə öz tərəfdaşları ilə işini davam etdirib.



*Azərbaycan üzrə “Fəal Yaşlaşma İndeksi” (FYİ) hesabatından: “Avropa İttifaqının orta göstəricisi ilə müqayisədə, Azərbaycanda yaşlı insanlar fiziki fəaliyyətlə daha çox məşğul olurlar. Bununla belə, Azərbaycanda yaşlı insanların tibbi və uzun müddətli qayğı ehtiyacları hazırda təmin edilmir və bu sahə hökumətin təxirəsalınmaz diqqətini tələb edir”.*

*© UNFPA/ 2021*

## Diqqətdən kənarda qalmış insanlar üzrə məlumatlar

### FƏAL YAŞLANMA İNDEKSİ

milli və alt milli səviyyədə fəal və sağlam yaşlanma baxımından yaşlı insanların istifadə edilməmiş potensialını qiymətləndirmək və müəyyən etmək məqsədilə hökumətə dəstək olaraq, çap edilib (UNFPA)

### YAŞLILARIN VƏZİYYƏTİ HAQQINDA SORĞU

yaşlıların vəziyyətini, onların sosial rifahını, həyat tərzini və həyatının keyfiyyətini əhatəli və dərin şəkildə təsvir etmək üçün şəhər və kənd yerlərindən yaşayan və yaşı 60-dan yuxarı olan 2,500 şəxs arasında yaşlı qadınlara xüsusi diqqət yetirilərək, keçirilib (UNFPA)

### “YAŞLI İNSANLARIN TƏNHALIĞI HAQQINDA” REGİONAL SORĞU

tənhalığı daha yaxşı anlamaq və onun aradan qaldırılmasında yaxşı təcrübə ilə bölüşmək üçün 7 ölkəni əhatə edib (UNFPA)

### SOSİAL RİFAH XİDMƏTLƏRİ

fəal yaşda olan, yaşlılar və digər təbəqələrə aid insanlar üçün tədqiq olunub (BƏT)

### YARDIMÇI TEXNOLOGİYANIN SÜRƏTLİ QİYMƏTLƏNDİRİLMƏSİ

Azərbaycanda həyata keçirilib (ÜST)

### MÜLKİ İŞLƏRDƏ ƏDLİYYƏYƏ ÇIXIŞIN QİYMƏTLƏNDİRİLMƏSİ

həssas qruplar üçün mülki işlər üzrə hüquqi yardım haqqında xüsusi qanunun qəbuluna dair tövsiyələr və bir sıra nəticələrin təqdim olunması ilə yekunlaşıb (BMT İHAK)

## Gender bərabərliyi üzrə məlumatlar

### AZƏRBAYCANDA QADINLAR VƏ KİŞİLƏR

adlı illik statistik hesabat dezaqreqasiya edilmiş məlumatları əks etdirən əhali ilə bağlı məlumatlar bazasının möhkəmləndirilməsi məqsədilə çap edilib (UNFPA)

### ÖLKƏ ÜZRƏ GENDER QİYMƏTLƏNDİRİLMƏSİ

kənd təsərrüfatı və kənd yerlərinin inkişafı sahəsində daha yaxşı şəkildə əsaslandırılmış, məqsədyönlü və genderi nəzərə alan tədbirlərin görülməsi üçün biliklər çərçivəsini yaradıb (FAO)

### GENDER BƏRABƏRLİYİ ƏSASINDA ATALIQ MƏZUNİYYƏTİNİN TƏHLİLİ

Azərbaycanda ödənişli atalıq məzuniyyəti siyasətinin tətbiqi üçün bu sahədə siyasət, təcrübə və təşviqat işlərinə istiqamət verir (UNFPA)

## Səhiyyə sahəsində görülmüş cavab tədbirləri üzrə məlumatlar

### SƏHİYYƏ İNFORMASİYA SİSTEMLƏRİNİN (SİS) QİYMƏTLƏNDİRİLMƏSİ

məlumatların toplanması, təhlili, tibbi məsələlərlə bağlı hesabatların verilməsi, biliklərin ötürülməsi, idarəçilik və resurslar kimi SİS-in bütün müxtəlif elementlərini əhatə edib (ÜST)

### TƏCİLİ TİBBİ YARDIM ÜZRƏ İNFORMASİYA SİSTEMİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Azərbaycanda təcili tibbi yardımın gücləndirilməsində boşluqlar və görüləcək tədbirlərin prioritetlərini təhlil edib (ÜST)

### EHTİYACLARIN QİYMƏTLƏNDİRİLMƏSİ

COVID-19 pandemiyası zamanı həddindən artıq ölüm hallarını azaltmaq üçün ilkin tibbi xidmətlərin gücləndirilməsi məqsədilə aparılıb (ÜST)

### DAVRANIŞIN TƏHLİLİ SORĞUSU

COVID-19 peyvəndinə aid münasibəti müəyyən etmək üçün aparılıb, onun nəticələri xüsusi hədəflənmiş məlumatlandırma strategiyası və müdaxilə tədbirlərinin hazırlanmasında istifadə edilib (ÜST)

### İNNOVATİV SOSİAL DİNLƏMƏ

iki həftəlik məlumatların təhlili vasitəsilə COVID-19 pandemiyası barədə ictimai rəyin monitorinqini aparmağa kömək edib və bu, öz növbəsində, proqram fəaliyyətləri və təşviqat səylərini təşkil etməyə yardımçı olub (UNİCEF)

### MİQRANTLARA AİD REGİONAL SORĞU

əcnəbi miqrantların bütün Cənubi Qafqaz regionunda yaşayış şəraitlərinin və COVID-19-la bağlı ehtiyaclarının sübutlar əsasında əhatəli qiymətləndirilməsini təmin edib (BMqT)

## Təhsil üzrə məlumatlar

### FÖVQƏLADƏ HALLARDA TƏHSİLİN QİYMƏTLƏNDİRİLMƏSİ

münaqişə və COVID-19 pandemiyasının uşaqlara, müəllimlərə və məktəb rəhbərliyinə təsirini ölçmək üçün doqquz rayonda keçirilib və ilkin cavab tədbirlərinin planlaşdırılması proseslərində istifadə olunub (UNİCEF)

### MÜƏLLİMLƏRİN İKT HAZIRLIĞI SAHƏSİNDƏ ARAŞDIRMA

ümumtəhsil ocaqlarında aparılıb və bu sahədə aparılan siyasətlər üzrə tövsiyələr verilib (UNESCO)

### 2017-2021-Cİ İLLƏR ÜZRƏ DÖVLƏT GƏNCLƏR PROQRAMININ QİYMƏTLƏNDİRİLMƏSİ

onun icrası zamanı götürülmüş dərsləri, yaxşı təcrübəni və innovasiyaları sənədləşdirmək üçün aparılıb (UNİCEF)

## Ətraf mühitin mühafizəsi üzrə məlumatlar

### AVTOMATLAŞDIRILMIŞ MƏLUMAT TOPLAMA SİSTEMİ

pestisidlərlə bağlı risklər barədə monitorinqi və informasiyanın emalını təkmilləşdirmək üçün dövlət qurumlarına təqdim edilib (FAO)

### COĞRAFİ VƏ MEŞƏÇİLİK ÜZRƏ MƏLUMAT BAZALARI

meşələrin idarə edilməsi planlarının tərtib edilməsi üçün dövlət qurumlarına təqdim edilib (FAO)

### EROZİYAYA UĞRAMIŞ TORPAQLARIN GIS XƏRİTƏSİ

Abşeron yarımadası üzrə tərtib edilib, Milli Meşə İnventarlaşdırılması çərçivəsində sahədə məlumatların toplanmasına aid bələdçi kitabça hazırlanıb (FAO)

### FƏLAKƏT RİSKLƏRİN AZALDILMASI SİSTEMLƏRİNİN TƏHLİLİ

kənd təsərrüfatı sektorunda ilkin xəbərdarlıq sistemləri, aqrometeoroloji xidmətlər, o cümlədən qanunvericilik, siyasət, bacarıqlar və xidmətləri əhatə edərək aparılıb (FAO)

### ENERJİDƏN SƏMƏRƏLİ İSTİFADƏ ÜZRƏ TƏDQİQAT

Gəncə və Bərdə şəhərlərində yaşayış binalarında enerji itkisinin minimal səviyyəyə endirilməsi ilə bağlı aparılıb (BMTİP)

## İqlim dəyişmələrinə qarşı mübarizə üzrə məlumatlar

### MÖVCUD QANUNVERİCİ ÇƏRÇİVƏNİN TƏHLİLİ

Azərbaycan qanunvericiliyin Avropa İttifaqının qanunvericiliyinə uyğunlaşdırılması məqsədilə iqlim dəyişmələri sahəsində görülən tədbirlər üçün aparılıb (BMTİP)

### İQLİM DƏYİŞİKLİYİNİN TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

iqlim dəyişikliyinə ən həssas həyata keçirilib (BMTİP)

### İQLİM DƏYİŞİKLİYİNƏ AİD TƏDQİQAT

kənd təsərrüfatı sektorunda aparılıb və hökumətə uyğunlaşma və təsirin azaldılması strategiyaları ilə bağlı təkliflər verilib (BMTİP)

### MƏLUMATLARIN MÜBADİLƏSİNƏ DAİR QİYMƏTLƏNDİRMƏ

iqlim dəyişikliyi ilə bağlı prioritet sayılan sahələrdə, o cümlədən su, sahilyanı yerlər və kənd təsərrüfatı üzrə aparılıb (BMTİP)

### İQLİM TEXNOLOGİYALARININ TEXNİKİ QİYMƏTLƏNDİRİLMƏSİ

Milli Səviyyədə Müəyyən edilmiş Töhfələrdə öz əksini tapmış təsirin azaldılması və uyğunlaşma hədəflərinin icrasını dəstəkləmək məqsədilə sosial baxımdan həssas sahələri və gender əsaslı bərabərsizliyi təhlil edərək, aparılıb (FAO)

## Ölkə üzrə məlumatlar

### ÜÇÜNCÜ KÖNÜLLÜ MİLLİ HESABAT

DİM-lər sahəsində ölkənin əldə etdiyi irəliləyişi və irəliyə doğru addımların təfərrüatlı təsvirini verib (BMTİP)

### ÇOXGÖSTƏRİCİLİ KLASTER SORĞUSU (MICS)

ölkədə DİM məlumatları üzrə müəyyən edilmiş boşluqları doldurmaq üçün sorğu ilə bağlı işlər başlayıb (UNİCEF)

### TƏKRAR MƏHRUM OLUNMANIN ÇOXÖLÇÜLÜ TƏHLİLİ (TMÇT)

uşaqlar arasında yoxsulluğun ölçülməsi üçün ölkədə ilk dəfə sınaq kimi tətbiq edilib (UNİCEF)

### MİLLİ TRANSFER HESABLARINA AİD HESABAT

əhali artımı və yaş strukturunun makroiqtisadiyyata, gender və nəsillərarası bərabərliyə təsirinin qavranılması və təhlil olunmasına yardım edib (UNFPA)

### 2021-2050-Cİ İLLƏR ÜZRƏ ƏHALİNİN PROQNOZLAŞDIRILMASI

demoqrafik dəyişikliklər və sosial-iqtisadi inkişaf prosesləri arasında mütənasibliyin təhlili məqsədilə aparılıb (UNFPA)

## 3-cü prioritet sahə: Ətraf mühitin mühafizəsi və iqlim dəyişikliyi ilə mübarizə

***Nəticə 3.1** – İnsanlar, o cümlədən kənarda qalanlar təbii sərvətlərin dayanıqlı şəkildə idarə olunmasını, yaşayış üçün vasitələrinin qorunmasını və dayanıqlılığın artırılmasını təmin edən iqlim strategiyaları və ətraf mühitin mühafizəsi üzrə siyasətlərdən faydalanır*




*2021-ci ildə DİM-lər üzrə vəsaitlərin ayrılması*

**Büdcə**
**$2,813,244**

**Xərclər**
**$2,192,787**

**İcra dərəcəsi**
**78%**

*2021-ci il üzrə maliyyə vəziyyətinin qısa təsviri*

Ölkə üzrə Ümumi Təhlil müəyyən edib ki, ətraf mühitin deqradasiyası əhalinin bəzi təbəqələrinin inkişaf prosesində geridə qalmasına səbəb olub. Məsələn, ailələrini dolandırmaq üçün fermer təsərrüfatı ilə məşğul olan insanlar, o cümlədən münaqişənin təsirinə məruz qalmış yerlərdə yaşayanlar, sənaye çirklənməsi və torpaqların deqradasiyası nəticəsində torpağın məhdud məhsuldarlığı ilə üzləşib. Onlar həmçinin öz maliyyə riskini qarşılamaq və öz qazanc imkanlarını təmin etmək üçün bacarıqlar və həmin sahəyə çıxış çatışmazlığı ilə üzləşir. Bu çətinlikləri aradan qaldırmaq məqsədilə hökumət və xüsusən də, Ekologiya və Təbii Sərvətlər Nazirliyi dövlət proqramları qəbul edib, həmin məsələlərin həlli üçün qanunvericilik hazırlayıb, o cümlədən beynəlxalq müqavilələri ratifikasiya edib, milli strategiyalar tərtib edib. Bununla belə, iqtisadi yenidənqurma nəticəsində ətraf mühitə ziyan vuran modelin yaranmamasını təmin etməkdə ölkənin imkanları baxımından boşluq hələ də qalır. Ətraf mühitin deqradasiyası və iqlim dəyişikliyinin mənfi təsirindən insanların qorunması məqsədilə **BMT iqlim planları, sazişlər və protokolların, o cümlədən Paris İqlim Sazişi çərçivəsində Azərbaycanın öhdəliklərinin effektiv şəkildə icrasını** təmin etmək üçün hökumətə və digər tərəfdaşlara texniki dəstək verib. **Yaşıl iqtisadiyyata keçid** mühüm təsiri olacaq bir sıra tədbirləri nəzərdə tutan iqlimin modelləşdirilməsi planlarının tərtib edilməsini və iqlim dəyişmələri üzrə hesabatların verilməsi mexanizmlərini ehtiva edir. 2021-ci ildə BMT bu cür tədbirlərə, o cümlədən diqqətdən kənarda qalan şəxslərə, **enerjiyə qənaət edən hallərə, torpaqdan istifadə zamanı uyğunlaşma strategiyalarına və həssas cəhətlərin qiymətləndirilməsi və digər dəlillərin ekoloji siyasətdə əks olunmasına yönələn və iqlim texnologiyalarını qiymətləndirən milli planların hazırlanmasına** dəstək verib.

**39,600 HEKTARLIQ**
ərazidə daha dayanıqlı kənd təsərrüfatı təcrübəsi tətbiq edilib (BMTİP)

**1,000 HEKTARLIQ**
eroziyaya uğramış əkin sahəsi yerli məhsulun yetişdirilməsi üçün bərpa olunub (BMTİP)

**9,700 HEKTARLIQ**
sahədə yerli buğda bitkiləri, tərəvəz və yem bitkiləri əkilib (BMTİP)

**GENETİKA BANKLARI**
buğda, meyvə və tərəvəzlər üzrə yaradılıb (BMTİP)

**ZİYANVERİCİ HƏŞƏRATLARA DAİR**
vahid idarəçilik üzrə milli tədbirlər planı tərtib edilib (FAO)

**217 TON**
köhnəlmiş pestisidlər təcrid olunub (FAO)

### BEŞ ÖLKƏDƏN İBARƏT REGİONAL ŞƏBƏKƏ

"paslanmış buğda" və böyüməyə əngəl olan xəstəliklərə qarşı mübarizənin gücləndirilməsi məqsədilə yaradılıb (FAO)

### ÖLKƏ STRATEGİYASI

Hidroxlorftorkarbonların (HXFK) dövriyyədən çıxarılması üzrə tərtib edilib (UNİDO)

### MİLLİ UYĞUNLAŞMA PLANI

istixana qazlarının emissiyasına dair Milli Səviyyədə Müəyyən edilmiş Töhfənin yeni variantı ilə birlikdə hazırlanıb (BMTİP)

### EMİSSİYALARIN AZALDILMASI

strategiyasına dair hesabat hazırlanıb (BMTİP)

### MEŞƏLƏRİN İDARƏSİNƏ DAİR PLANLAŞDIRMA

qeyri-qanuni kəsimlər, yaylaqda həddindən artıq otarılma və heyvandarlıq fəaliyyəti nəticəsində meşə ehtiyatlarının zəifləməsinin qarşısını almaq üçün yenidən işlənilib (FAO)

### İQLİM DƏYİŞİKLƏRİNƏ UYĞUNLAŞMA

üzrə xartiya Milli Uyğunlaşma üzrə İşçi Qrupu tərəfindən tərtib edilib (FAO)

### "SƏNAYE QƏZALARININ TRANSSƏRHƏD TƏSİRİ HAQQINDA"

Konvensiya Azərbaycanda icrasını gücləndirmək üçün təşviq olunub (UNECE)

### TƏLİMATLAR

İqlim dəyişikləri və gender konsepsiyasının enerji siyasətinə daxil edilməsi ilə bağlı təlimatlar hökumətə təqdim olunub (BMTİP)

### SƏNAYE TULLANTILARININ XƏRİTƏLƏRİ PROQRAMI

sənaye fəaliyyəti nəticəsində tullantı mənbələrinin qiymətləndirilməsi və təkrar emal yollarının müəyyən edilməsi üçün həyata keçirilməyə başlayıb başlanılıb (UNİDO)

### İQLİM MALİYYƏ VƏSAİTLƏRİNƏ BİRBAŞA ÇIXIŞ

yerli təsisatın "Yaşıl İqlim Fondunun" akkreditasiyasından keçməsi ilə iqlim maliyyə vəsaitlərinə birbaşa çıxış təmin edilib (FAO)

### ƏTRAF MÜHİTİN STRATEJİ QİYMƏTLƏNDİRİLMƏSİ

protokolu milli ekoloji, səhiyyə və sektoral qurumlara təqdim olunub (UNECE)

### YOL XƏRİTƏSİ

istixana qazlarının emissiyasının inventarlaşdırılması eləcə də Monitorinq, Hesabatlılıq və Yoxlama (MHY) sistemləri üçün tərtib edilib (BMTİP)



*Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyi (BMqT) Azərbaycanın quraqlıq zonalarında əsas su mənbəyi kimi ənənəvi istifadə olunan ekologiyaya zərərsiz hidravlik struktur sayılan Kəhriz adlı qədim su sistemlərinin bərpasında yeni texnologiyanı tətbiq etdiyinə görə 180 ölkədə icra olunmuş 2500 layihə arasında 2021-ci il üzrə Qlobal Enerji mükafatını qazanıb. Kəhriz sistemləri su qıtlığı problemlərinin həllində qədim vaxtlardan Azərbaycanda mühüm rol oynayıb. Lakin, boru ilə su sistemləri və qazılmış quyuların tətbiqindən sonra həmin sistemlərə qarşı yaranmış ciddi biganəlik onların tam yararsız hala düşməsi ilə nəticələnib. Hesab edilir ki, Azərbaycanın 20 rayonunda ən azı 1400 bu cür sistem mövcuddur, lakin bu günə qədər onların yalnız 10%-i bərpa olunub və yerli əhalinin istifadəsinə verilib. Bu layihənin məqsədi onları bərpa etmək və bununla da Azərbaycanda kənd əhalisinin gəlirini artırmaq üçün onların su ehtiyatlarına çıxışını təmin etməkdir.*

*BMqT həmçinin Su İdarəçiliyi üzrə Milli Strategiyada nəzərə almaq üçün genderlə bağlı ehtiyacların, boşluqların təhlili və tövsiyələrin əks olunduğu Milli Baş Planı hökumətə təqdim edib. Kəhriz mühəndisliyi peşəsi barədə tarixi bilikləri qavramaqla yeni nəsil yerli mühəndislərin yeni bərpa modelləri hazırlaması məqsədilə Azərbaycan Dövlət Kənd Təsərrüfatı Akademiyasının tədris proqramına kəhriz mühəndisliyi kursları daxil edilib. Ölkənin 25 qəsəbəsində yerləşən 651 kəhriz barədə əhatəli məlumatları əks etdirən Azərbaycanın Milli Kəhrizlər Atlası da iki dildə tərtib edilib.*

*© BMqT/ 2021*

## 4-cü prioritet sahə: Qadın və qızların səlahiyyətlərini artıran və gender bərabərliyinə əsaslanan cəmiyyət

***Nəticə 4.1** – Müvafiq müdafiə tədbirlərindən kənarda qalanlar da daxil olmaqla, qadın və qızlar onların ayrı-seçkilik və zorakılıqdan qorunmasını təmin edən və həyatın bütün sahələrində iştirakı üçün səlahiyyətlərini artıran təkmilləşdirilmiş milli mexanizmlərdən faydalanır*




*2021-ci ildə DİM-lər üzrə vəsaitlərin ayrılması*

| Büdcə | Xərclər | İcra dərəcəsi |
|---|---|---|
| $1,211,090 | $1,211,090 | 100% |

*2021-ci il üzrə maliyyə vəziyyətinin qısa təsviri*

Ölkə üzrə Ümumi Təhlil gender bərabərsizliyini Azərbaycanda dayanıqlı inkişaf üçün əsas çətinlik kimi qeyd edib. Dayanıqlı inkişaf nəticələrinin hamıya faydalı olması üçün gender rolları ilə bağlı stereotiplərdən irəli gələn ayrı-seçkilik və çətinliklərə qarşı yönələn düşünülmüş siyasətə keçid tələb olunur: burada, qadınların əmək qüvvəsində təmsil olunmasını yaxşılaşdırmağa, onların cəmiyyətdə rolu ilə bağlı yanlış düşüncələrə qarşı mübarizəyə, qadınlara qarşı hər növ zorakılığın və zərərli vərdişlərin aradan qaldırılmasına yönəlmiş siyasətlər və bu məsələlərin həlli üçün hökumətin bütün səviyyələrində bacarıqların formalaşdırılması nəzərdə tutulur. Buna nail olmaq üçün **gender bərabərliyi ilə bağlı xərc bölgüsünə malik tədbirlər planının** hazırlanması, **qanunvericilikdə dəyişikliklərin** təşviqi və tədris proqramları və peşə həyatında qadınlarla bağlı qərəzli yanaşma hallarının aradan qaldırılmasına yönəlmiş **təşviqat xarakterli təşəbbüslər** həyata keçirmək məqsədilə 2021-ci ildə BMT əsas tərəfdaşlarla birgə səylər göstərib. BMT həmçinin Azərbaycanda xüsusən də təcrid olunmuş icmalar və münaqişədən zərər çəkmiş ərazilərdə yaşayan qadın və qızlara, iqtisadi və siyasi sahələrdə mənalı şəkildə iştirak etmək və töhfə vermək üçün imkan yaradacaq **yeni bacarıqların mənimsənilməsi** məqsədilə tədbirlər həyata keçirib.

### MİLLİ TƏDBİRLƏR PLANI

Gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsinə dair Milli Tədbirlər Planının layihəsi tərtib edilib (UNFPA)

### QADINLARIN SƏLAHİYYƏTLƏNDİRİLMƏSİ PRİNSİPLƏRİ

dörd yerli şirkət tərəfindən imzalanıb. Bununla onlar iş yerlərində, biznesdə və ictimai həyatda qadınları səlahiyyətləndirmək öhdəliyini öz üzərinə götürüb (BMTGBQSQ, BMTİP)

### GENDERƏ AİD MODULLAR

Azərbaycan İlahiyyat İnstitutunun tədris proqramına daxil edilib (UNFPA, BMTGBQSQ)

### 1,500 ATA

qız övladların səlahiyyətləndirilməsi yolları barədə məlumatlandırılıb, habelə gender bərabərliyi və məsuliyyətli yanaşmaya əsaslanan valideynlik üzrə bilik qovşağı sayılan üç Ata Məktəbi açılıb (UNFPA)

### İLK MİLLİ KONFRANS

Azərbaycanda keçirilmiş gender əsaslı zorakılığa qarşı yardım göstərənlərin ilk milli konfransında qadın və qızlara qarşı zorakılığın qarşısının alınmasına yardım edən ən yaxşı təcrübə və çətinliklər müzakirə edilib (BMTİP)

### STEM TƏLİM PLATFORMASI

təcrübə mübadiləsi və bacarıqların formalaşması üçün 100-dən artıq təlimçi və təlim iştirakçısını cəlb edib (BMTİP)

### MİLLİ TƏDBİRLƏR PLANI

Qadınlar, sülh və təhlükəsizliklə bağlı Milli Tədbirlər Planının layihəsi yekunlaşdırılaraq, baxılması üçün Hökümətə təqdim olunub (BMTGBQSQ)

### GENDERİ NƏZƏRƏ ALAN SƏHİYYƏ MODULU

gənc ataları uşaqlara qayğı çalışmalarına cəlb etmələri üçün səhiyyə ocağı işçilərinə təqdim olunub (UNFPA)

### GENDER BƏRABƏRLİYİ ÜZRƏ İLK HAKATON

Gender bərabərsizliyinin aradan qaldırılması üçün texnoloji həll yollarının tapılması məqsədilə həyata keçirilib (UNFPA)

### 691,000 NƏFƏR

gender bərabərliyi, zorakılığın qarşısının alınması, reproduktiv sağlamlıq və qadınların elm, texnologiya, mühəndislik və riyaziyyat sahəsində rolu (STEM) barədə məlumatlanıb (UNFPA, UNİCEF, BMTİP)

### 1,178 QADIN

yerli bazarda məşğulluq və özünüməşğulluq barədə bacarıqlar öyrənib (FAO, BMTİP, BMTQAK)

### ON MƏKTƏB DƏRSLİYİ

müxtəliflik və gender bərabərliyinə uyğunluq baxımından nəzərdən keçirilib, 25 dərslik müəllifi və təhsil ekspertinə bu istiqamətdə biliklər verilib (UNİCEF, UNFPA)

## “Heç kəsi kənarda qoymamaq” vədi  üzrə ümumi irəliləyiş

### Azərbaycanda qadın fermerlər üçün mentor

Azərbaycanın şimal-qərbində yerləşən Samux rayonunun sakini, 52 yaşlı fermer Olqa Babayeva öz icmasında tanınmış iş qadınıdır. O, ən iri tərəvəz toxumu istehsalçısı olmaqla yanaşı, fermer təsərrüfatı ilə məşğul olan qadınlara böyük dəstəyi ilə də tanınır. Olqa fəaliyyətə yeni başladığı günləri belə xatırlayır: *“Bu asan deyildi. Əvvəlcə, traktor sürücüləri mənim sahəmdə işləməkdən imtina edirdilər və ya rəsmilər xahişlərimə diqqət yetirmirdilər, çünki onlar bir qadının peşəkar şəkildə fermer təsərrüfatı ilə məşğul olması faktını qəbul edə bilmirdilər. Sizin yeriniz mətbəxdir. Qadınlarımız bunu tez-tez eşidir. Bu gün isə, mənim uşaqlarım böyükdür, lakin eyni münasibət və çətinliklər hələ də qalır.”* Təcrübəsi sayəsində o, qadınların kənd təsərrüfatında üzləşdiyi çətinlikləri yaxşı bilir. Özü də onların bir çoxu ilə üzləşməli olub.

FAO 20 rayondan olan 100-dən artıq fermer qadın arasında şəbəkə yaradıb. Olqa onlar üçün mobil tətbiq vasitəsilə təlimlər keçir: *“Böyük dəyişikliklərin bir hissəsi olmaqdan çox məmnunam. Qadın və qızlar ədalətli imkanlara və münasibətə layiqdirlər və maliyyə baxımından sabit olduqları zaman onların bərabər şəkildə qəbul olunacağı güclü səsi olacaq”.*



*© FAO/ Emil Yusubov/ 2021*



*© BMTİP/ Məmməd Əliyev/ 2021*

### Bakının İnklüziv İncəsənət Məktəbi həyata yeni stimul verir və həvəsləndirir

Ramin Binnətov Azərbaycanda BMTİP və UNFPA-nın birgə həyata keçirdiyi təşəbbüs olan Bakıda İnklüziv İncəsənət Məktəbinin təşkil etdiyi taxtadan yonma kurslarında iştirak etmiş bir çox istedadlı və sadiq tələbələrdən biridir. Ramin Qazax rayonunda anadan olub və ağır atletika ilə məşğul olub. İyirmi yaşında idman hazırlığının ən zirvəsində olan Ramin ciddi zədə alır və bu, təəssüf ki daimi əlillik ilə nəticələnir. Bu çətinliklərə baxmayaraq, öz idman karyerasını davam etdirməkdə israrlı olan Ramin özü Paralimpiya atıcılıq bacarıqlarına yiyələnib. Ramin deyir: *“Mən hər zaman yeni bacarıqlar öyrənməkdən həzz almışam, lakin bu məktəbdəki dərslər bacarığın nə olduğu ilə bağlı fikirlərimi xeyli genişləndirdi. Məsələn, indi anlayıram ki, ağac işləmə sadəcə sənət deyil, o həmçinin stressi aradan qaldıran bir prosesdir. O, sizə müsbət əhval-ruhiyyə verir. Əgər işlər planlaşdırdığım kimi getsə, bu yeni bacarıq hətta gəlir də gətirə bilər”.*

Hökumət İnklüziv İncəsənət Məktəbini yüksək qiymətləndirir. Bu məktəb DOST mərkəzlərinin birində İnklüziv Təhsil Mərkəzi kimi öz fəaliyyətini davam etdirəcək.

### Erkən tədris mərkəzləri Azərbaycanda vacib məktəbəqədər təhsilə çıxışı genişləndirir

Dörd yaşlı Kənanı Gəncədəki mərkəzə valideynləri gətirib. O, kongenital mikrosefaliyadan əziyyət çəkir. Bu halda, insan ünsiyyət problemləri və nitq bacarığının yubanmasından əziyyət çəkir. Kənanın anası Xəyalə oğlunda gördüyü müsbət dəyişiklikləri belə izah edir: *“Oğlum mərkəzə gəlməzdən əvvəl digər uşaqlardan qaçardı, istəməzdi ki, ona toxunsunlar. O, digər uşaqlarla oynamırdı və hətta, yerindən durmaq istəmirdi. Meyvə və tərəvəzləri tanımırdı. Cəmi bir aydan sonra, mən Kənanda xeyli yaxşılaşma gördüm. O, meyvə və tərəvəzləri tanıyır, digər uşaqların əlindən tutur və onlarla oynayır. Mən ana kimi bundan çox xoşbəxtəm”.* UNİCEF-in dəstəyi ilə ölkənin dörd rayonunda səkkiz ilkin tədris mərkəzi yaradılıb. Bu mərkəzlər xüsusi olaraq ilkin təhsilə çıxışı məhdud və ya ümumiyyətlə olmayan uşaqların ehtiyaclarını təmin etmək üçün yaradılıb.



*© UNICEF/ Əliyev/ 2021*

### Gənc liderlər Azərbaycanda qadınlara qarşı zorakılığa və gender bərabərsizliyinə qarşı mübarizə aparırlar



*© UNFPA, 2021*

Həyatının müəyyən dövründə, Azərbaycanda hər üç qadından biri məişət zorakılığına məruz qalır. Bununla belə, 10 milyonluq əhalisi olan ölkədə bu cür zorakılıq qurbanları üçün cəmi iki sığınacaq mövcuddur.

Mühəndislik fakültəsinin tələbəsi Aylin Əkbərli: *“Nəinki Azərbaycanda, o cümlədən bütün dünyada qadınlar üçün sığınacaqların çatışmaması inanılmaz və məyusedicidir”.* 21 yaşlı Aylin zorakılıq qurbanları olmuş qadınlar ilə müvəqqəti sığınacaq və digər mühüm resurslar arasında əlaqəni yaradan mobil tətbiqi ilə bu problemlərin innovativ çözülməsinə artıq töhfə verib. UNFPA-nın dəstəklədiyi gender bərabərliyi hakatonu zamanı hazırlanmış “Lea” tətbiqi zorakılıq qurbanları ilə müvəqqəti sığınacaqlar arasında əlaqəni yaratmaqda kömək edir.

Müsəlman din xadimi Təbriz Qasımov gender stereotiplərinin aradan qaldırılması istiqamətində digər kişilərlə müzakirələr apararaq, həyat yoldaşına ev təsərrüfatı və uşaqlara qayğı işlərində kömək etməyin vacibliyini vurğulayır. *“Gənclərlə ünsiyyət saxlamaq, gender bərabərliyi barədə ideyaları bölüşmək və səhv qavranılan məsələlərə aydınlıq gətirmək cəmiyyətimizdə sağlam mühitin qurulması üçün olduqca vacibdir”.*

## 2.3. Tərəfdaşlığa dəstək və 2030-cu il gündəliyinin maliyyələşdirilməsi

Dövlət və özəl qurumlar arasında tərəfdaşlığın gücləndirilməsi və öz fəaliyyətini DİM-lərə uyğunlaşdırmaq imkanını yaradan dayanıqlı biznes təcrübəsinin təşviqi üçün 2021-ci ildə özəl sektorla davamlı əlaqə əsas prioritet olub. **BMT-nin Qlobal Sazişi** ilə sıx çalışaraq, BMT korporativ dayanıqlılıq və qadınların səlahiyyətləndirilməsi sahələrində Amerika, Fransa və Britaniya Ticarət Palataları ilə tərəfdaşlıq əsasında özəl sektorla əlaqələrini genişləndirib. Oktyabr ayında BMT ölkədə şirkətlər arasında korporativ dayanıqlılığı və BMT-nin Qlobal Sazişini təşviq etmək üçün Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və Azərbaycanda Sahibkarlığın İnkişafı Fondu ilə **Anlaşma Memorandumlarını** (AM) imzalayıb. Həmin səylər nəticəsində ölkənin özəl sektorunda DİM gündəliyinin daha geniş icrası məqsədilə BMT-nin Qlobal Saziş Fondu Azərbaycanı sınaq ölkəsi kimi seçib.

**Vətəndaş cəmiyyəti** ilə tərəfdaşlığın gücləndirilməsi məqsədilə BMT QHT-lərə Dövlət Dəstəyi Agentliyi ilə Anlaşma Memorandumunun layihəsi üzərində çalışıb. Bundan əlavə, insan hüquqları sahəsində birgə fəaliyyət üçün Ombudsman Aparatı ilə imzalamaq üçün Anlaşma Memorandumu hazırlanıb.

Regiondakı digər BMT heyətləri ilə Cənubi Qafqaz üçün Sülh İnnovasiyaları Platforması hazırlanıb və DİM-lərin təşviqində təcrübə mübadiləsində, sülh quruculuğunda innovativ rəqəmsal vasitələr sahəsində bilik və bacarıqların artırılmasında maraqlı olan vətəndaş cəmiyyəti təşkilatları arasında **trans-sərhəd əməkdaşlığı** üçün imkanlar yaradılıb.

İnkişaf tərəfdaşları ilə məsləhətləşərək, BMT ölkənin inkişaf prioritetlərini və ümumi sahələri daha yaxşı əks etdirmək üçün Azərbaycanda inkişafın əlaqələndirilməsi platformasını yenidən strukturlaşdırıb. Yeni iş üsulu inkişaf tərəfdaşları tərəfindən təsdiqlənib. Nəticədə, aşağıdakı sahələrdə inkişafın əlaqələndirilməsi üzrə **altı alt qrup yaradılıb:** dayanıqlı və rəqabətcil iqtisadi inkişaf; sosial ahəngdarlıq, inklüzivlik və ədliyyə; rəqabətcil insan kapitalı (səhiyyə, təhsil və sosial müdafiə); ətraf mühit və enerji; gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi; və minalardan təmizlənmə. Hər alt qrupa BMT qurumu və inkişaf tərəfdaşı həmsədrlik edir və hazırda, BMT-nin rezident əlaqələndiricisi İnkişafın Əlaqələndirilməsi Qruplarının rüblük iclaslarına sədrlik edir.

*FAO Azərbaycan kənd təsərrüfatı sahəsində ən böyük özəl şirkətlərlə - Azersun Holdinq MMC və Aqrarko MMC ilə tərəfdaşlıq qurub. FAO ilə Azərsun arasında Anlaşma Memorandumu aşağıdakı sahələrdə birgə səylərin göstərilməsini nəzərdə tutur: fermerlərin, o cümlədən kiçik fermerlərin bacarıqlarını artırmaq üçün özəl sektorun maliyyə dəstəyinin və yeniliklərin təmin edilməsi; Azərbaycanın kənd təsərrüfatı və ərzaq istehsalı sistemlərinin daha da inkişafı; "Yaşıl İqlim Fondu" kimi şaquli fondlara əlçatanlıq üçün birgə maliyyələşmə imkanlarının artırılması. "Aqrarko" şirkəti ilə razılaşmanın icrası fındıq istehsalı sektorunda tətbiq edilən keyfiyyətli və dayanıqlı kənd təsərrüfatı təcrübəsini artırmaq məqsədini güdür. Çünki həmin şirkət yüksək dərəcəli fındıq və təzə meyvələrin yetişdirilməsi və ixracı ilə məşğul olan Azərbaycanın aparıcı kənd təsərrüfatı şirkətlərindən biridir.*



©FAO/ Əbdül Mustafazadə /2021

## 2.4. BMT-nin birlikdə daha çox və daha yaxşı çalışaraq əldə etdiyi nəticələr: BMT-nin aktuallığı, effektivliyi və səmərəliliyi

2021-ci il mart ayının 1-də, 2021-2025-ci illər üçün BMT və Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədi (BMTDİƏÇ) imzalandıqdan sonra, onun effektiv icrası məqsədilə **idarəçilik və hesabatlılıq strukturu yaradılıb.** Struktur 2016-2020-ci illər üzrə BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi sənədinin yekun qiymətləndirilməsində verilmiş tövsiyələrə və dərslərə əsaslanıb. Yekun Qiymətləndirmədə 58 tövsiyədən qalan 30 əsas fəaliyyət 2021-ci ildə icra olunub və beləliklə, idarəçilik sahəsində cavab tədbirləri tamamlanıb.

Çərçivə Sənədinin beş nəticəsi üzrə hər birinə BMT və hökumət nümayəndəsinin həmsədrlik etdiyi **beş nəticə qrupu** yaradılıb. Nəticə Qrupları may ayında müştərək iş planlarını tərtib edib və Birgə İstiqamətləndirici Komitənn birinci iclası 2021-ci ilin iyun ayında keçirilib. Müştərək iş planlarında COVID-19-un sosial-iqtisadi təsirinin qiymətləndirilməsi sənədində verilmiş nəticələr və tövsiyələr, o cümlədən münaqişədən sonra bərpa tədbirləri əks olunub.

BMT-nin rezident əlaqələndiricisinin ofisində BMTGBQSQ-in gender siyasəti üzrə mütəxəssisinin işə başlaması BMT-nin Ölkə üzrə İdarə Heyətinin (BMTOİH) **gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi** imkanlarını genişləndirib.

**BMTDİƏÇ-in monitorinq və qiymətləndirmə (M&Q) sisteminin** gücləndirilməsi məqsədilə nəticələr cədvəli, o cümlədən M&Q çərçivəsi 2021-ci ilin sentyabr ayında nəzərdən keçirilib və yenilənib. 2021-ci ilin dekabr ayında BMT-nin M&Q üzrə işçi qrupu üçün seminar həyata keçirilib. BMTDİƏÇ-in əsas planlaşdırma, monitorinq və hesabatlılıq mexanizmi kimi UNINFO sisteminə dair bütün Nəticə Qruplarının üzvləri üçün ayrıca təlimlər keçirilib.

BMTDİƏÇ-in əsasını təşkil edən nəzəriyyəsinə əsasən irəli gərək, DİM-lər Azərbaycanda yalnız o halda icra oluna bilər ki, diqqətdən kənarda qalmış şəxslər müvafiq institusional dəstək və artan dayanıqlılıq vasitəsilə öz hüquqlarından yararlansın. Bu istiqamətdə **BMT-nin gender və insan hüquqları üzrə tematik qrupları** 2021-ci ildə fəaliyyətlərini bərpa ediblər.

Gender üzrə tematik qrupun dəstəyi ilə, BMTOİH 2021-ci ildə **BMT sistemində tədbirlər planına (SWAP) əsaslanan gender bərabərliyinə dair ölçü cədvəlini** hazırlayıb və göstəricilərin 40 faizində minimal tələblərə cavab verib yaxud onları üstələyib. Qalan göstəriciləri yaxşılaşdırmaq məqsədilə BMTÖİH dövri əsaslarla yoxlanılacaq və nəzərdən keçiriləcək tədbirlər planını tərtib edib.




***Qadın və qızlara qarşı zorakılığın aradan qaldırılmasına həsr olunmuş 16 günlük kampaniya çərçivəsində Azərbaycanın Neftçi futbol klubunun heyəti zorakılığa qarşı mübarizəni təsvir edən narıncı formalarda meydançaya çıxıb. Bu il keçirilən kampaniya, əsasən, qadınlara qarşı zorakılığın əsas səbəblərinin aradan qaldırılmasında kişilərin iştirakı ideyası ətrafında həyata keçirilib. Kampaniya çərçivəsində sosial media, TV və radio, habelə açıq səmada təşkil olunan fəaliyyətlər vasitəsilə bir sıra ismarışlar və təsvirlər ictimaiyyətə təqdim olunub.***

*©UNFPA və Neftçi futbol klubu/ 2021*

### BMT-nin Ölkə üzrə İdarə Heyəti tərəfindən BMT sistemində tədbirlər planına (SWAP) əsaslanan gender bərabərliyinə dair ölçü cədvəlinin ümumi təsviri: 2021-ci il üzrə vəziyyət




UNFPA-nın rəhbərlik etdiyi gender üzrə tematik qrup 2022-ci ilin iyun ayında keçiriləcək “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” Konvensiya üzrə Komitənin 82-ci sessiyasında təqdim olunacaq hesabatı yeniləyib.

İnsan hüquqları üzrə tematik qrup vasitəsilə BMT birgə hesabatları təşkilatın İqtisadi, Sosial və Mədəni Hüquqları üzrə Komitəsinin 70-ci sessiyasında və BMT-nin Miqrant İşçilər Komitəsinin 33-cü sessiyasında təqdim edib. BMT-nin rezident əlaqələndiricisi ilə birgə İnsan hüquqları üzrə tematik qrup Azərbaycanda BMT ilə vətəndaş cəmiyyəti təşkilatları (VCT) arasında tərəfdaşlıq və əməkdaşlığın genişləndirilməsi məqsədilə milli VCT və insan hüquqları müdafiəçiləri ilə təmaslarını artırıb. İnsan Hüquqları Günü çərçivəsində, tematik qrup Ümumdünya İnsan Hüquqları Bəyannaməsində təsbit olunmuş dəyərlər və prinsiplər barədə məlumatlandırmanı artırmaq üçün beraberlik.az vebsaytını təqdim edib.

“Əlilliyin İnteqrasiyası” üzrə qurumlararası işçi qrupu Azərbaycanda BMT-nin Əlillərin İnteqrasiyası Strategiyasını həyata keçirmək üçün Əlilliyin inteqrasiyası üzrə BMTnin ölçü cədvəlində əks olunmuş 7 göstərici üzrə tədbirlər planını hazırlayıb.

## Əlilliyin İnteqrasiyası üzrə BMT-nin ölçü cədvəli: 2021-ci il üzrə vəziyyət




Bundan əlavə, BMTÖİH **"Cinsi istismar və sui-istifadənin qarşısının alınması"na dair təfərrüatlı tədbirlər planını** hazırlayaraq, bu sahədə öz işini təkmilləşdirib. Bu məqsədlə yaradılmış qurumlararası işçi qrupu həmin tədbirlər planını həyata keçirir və bu istiqamətdə vətəndaş cəmiyyəti təşkilatlarının 53 üzvü üçün təlim təşkil edib.

İş əməliyyatlarını təkmilləşdirmək və səmərəliliyi artırmaq məqsədilə, **2.0 İş Əməliyyatları Strategiyası** əsasında BMT ölkə nümayəndəliyi üçün vahid ofisin yaradılmasını prioritet kimi müəyyən edib və 2021-ci ildə inventarlaşdırma işini başa çatdırıb. Bu, 2022-ci ildə ölkə nümayəndəliyi üçün vahid ofisin təşkilində əsas kimi götürüləcək. 2021-ci ildə, inzibati, maliyyə, kadrlar, İKT və təchizat xidmətlərində xərclərə kiçik dərəcədə qənaət edilib. Bu göstərici 100 min ABŞ dolları təşkil edib.

**BMT-nin Kommunikasiya Qrupu** (UNCG) BMTDİƏÇ-in icrasını dəstəkləmək üçün beşillik strategiya hazırlayıb. Bundan əlavə, UNCG 2022-ci ildə Azərbaycan–BMT tərəfdaşlığının 30-cu ildönümünü qeyd etmək üçün kommunikasiya strategiyasını tərtib edib. BMT-nin birgə kommunikasiya və təşviqat səyləri iki məqsəddən ibarət olub: COVID-19 və münaqişənin təsirinə məruz qalmış yerlərdə BMT-nin humanitar yardımı. İnfodemiya ("Verified" kampaniyası vasitəsilə) və irqçiliyə qarşı mübarizə, eləcə də gender bərabərliyinin təşviqinə yönəlmiş qlobal kampaniyalar yerli səviyyədə təşkil olunub. Beynəlxalq Qadınlar Günü, Yol Təhlükəsizliyi Həftəsi, BMT Günü, Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq və İnsan Hüquqları Günü kimi beynəlxalq günlər və həftələr hökumət və tərəfdaşlarla qeyd edilib. Bundan əlavə, BMT dövlət xəstəxanalarında yenicə işə götürülmüş ictimaiyyətlə əlaqələr üzrə 74 mütəxəssis üçün media münasibətləri, sosial media, misinformasiya və dezinformasiya, eləcə də risklər barədə məlumatların effektiv şəkildə verilməsi mövzusunda təlimlər keçirib.



*Gender stereotiplərinə qarşı mübarizədə UNFPA və BMTGBQSQ-ın sosial media kampaniyası çərçivəsində atalardan biri öz qız övladı ilə necə vaxt keçirtməsi ilə bağlı paylaşım edib. Ölkədə oğlan və qız övladları arasında nisbət narahatlıq doğurur, çünki doğulan uşaqlar arasında normal cins nisbəti hər 100 qıza təxminən 106 oğlan təşkil etdiyi halda, Azərbaycanda bu göstərici hər 100 qıza 114 oğlan təşkil edir. Bu, çox böyük qeyri-tarazlıqdır.*

*© UNFPA/ 2021*

# 2.5. Maliyyə məsələlərinin xülasəsi və vəsaitlərin səfərbər olunması

## 2.5.1. Maliyyə məsələlərinin xülasəsi

2021-ci ildə, Azərbaycan hökuməti və inkişaf tərəfdaşlarının dəstəyi ilə, 28.8 milyon ABŞ dolları və ya tələb olunan 35.3 milyon ABŞ dolları həcmində maliyyələşmənin 81 faizi toplanıb. BMT öz fəaliyyətlərini həyata keçirmək üçün mövcud olan maliyyə vəsaitlərindən 25.7 milyon ABŞ dollarını istifadə edib. Beləliklə, büdcənin icra səviyyəsi 89 faiz təşkil edib. Üç əsas tərəfdaş – BMT, Avropa İttifaqı və Azərbaycan hökuməti mövcud maliyyələşmənin 70 faizini təmin edib.

**Nəticə sahəsi üzrə xərclər (ABŞ dolları ilə)**




**BMT qurumları üzrə xərclər (ABŞ dolları ilə)**




**Maliyyələşmə (ABŞ dolları ilə)**




## 2.5.2. Vəsaitlərin səfərbər olunması və maliyyələşmənin keyfiyyəti

BMT 2021-ci ildə "BMTDİƏÇ üçün 2022-2025-ci illər üzrə Tərəfdaşlıq və Vəsaitlərin Toplanması Strategiyası"nı tərtib etməyə başlayıb. Bu, Azərbaycanın DİM-lər sahəsində irəliləyişini sürətləndirmək üçün daha çox vəsaitlərin ayrılmasına gətirib çıxaracaq tərəfdaşlıqların daha da genişləndirilməsinə töhfə verəcək. 2022-ci ildə yekunlaşacaq strategiya donor bazasının genişləndirilməsi və qeyri-ənənəvi donorlardan, o cümlədən özəl sektordan maliyyələşmənin vacibliyini vurğulayır. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və Sahibkarlığın İnkişafı Fondu ilə imzalanmış iki Anlaşma Memorandumu ilə BMT inkişaf məsələləri üzrə maliyyələşmənin və korporativ dayanıqlığın təşviqinə dəstək verməyə başlayıb. BMT-nin **"Vahid Milli Maliyyələşmə Çərçivəsi"nin (VMMÇ)** hazırlanmasına dəstəyi 2022-ci ildə də davam edəcək.

# 3-CÜ FƏSİL:

## BMT-nin Ölkə üzrə İdarə Heyətinin 2022-ci ildə diqqət göstərəcəyi əsas sahələr

2022-ci ildə, BMTÖİH-in əsas diqqəti **COVID-19 və münaqişədən sonra sosial-iqtisadi bərpa işlərinə** dəstəyin davam etdirilməsinə yönələcək. BMT həmçinin Ukraynadakı müharibənin Azərbaycana, xüsusən də ən həssas qruplara mümkün sosial-iqtisadi təsirini yaxından müşahidə edəcək. 2022-ci ildə hökumətin "**2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nı** yekunlaşdırmasından sonra, BMTÖİH BMTDİƏÇ-i yeni strategiyaya uyğunlaşdırmaq məqsədilə bu sənədi və prioritetləri hökumətlə birgə yenidən nəzərdən keçirəcək.

COVID-19-la bağlı cavab tədbirlərindən alınmış mühüm dərsləri nəzərə alaraq, BMT **səhiyyə,** o cümlədən **təhsil və sosial müdafiə sistemlərinin** gücləndirilməsində hökumətə dəstək verəcək. BMT Baş Assambleyasının 76-cı sessiyası zamanı **"Təhsilin Tranformasiyası" Sammitində** Azərbaycanın iştirakı ölkədə təhsil sisteminin inkişaf hədəflərini daha da artırmaq və pandemiya ilə bağlı tədrisdə müşahidə olunmuş itkiləri aradan qaldırmaq imkanını yaradacaq.

BMT həmçinin mikro, kiçik və orta sahibkarlıq subyektlərinin , gənc qadın və kişilərin, qeyri-rəsmi sektorda çalışanların, habelə kənd yerlərində və münaqişənin təsir göstərdiyi ərazilərdə yaşayan insanlar da daxil olmaqla qazanc imkanları risklərlə üzləşən işçilərin iqtisadi imkanlarının bərpasında dəstəyini davam etdirəcək. Bundan əlavə, hökumətin iqtisadi şaxələndirməni sürətləndirmək səylərinə dəstək olaraq, BMT, qeyri-neft sektorlarını prioritet götürərək, iqtisadi siyasət sahəsində birgə məşvərət və təhlil dəstəyini verəcək.

İqlim Dəyişmələri üzrə Paris Sazişindən irəli gələn öhdəliklərin icrasında, o cümlədən alternativ enerji mənbələrindən istifadənin genişləndirilməsində və bioloji müxtəlifliyin qorunmasında hökumətə dəstək vermək üçün BMT **Milli Uyğunlaşma Planı prosesinə** və yenilənmiş **Milli Səviyyədə Müəyyən edilmiş Töhfələrin** yekunlaşdırılmasına öz dəstəyini davam etdirəcək.

BMT, Avropa İttifaqı və Dünya Bankı da daxil olmaqla strateji tərəfdaşlarla birlikdə, **münaqişənin təsirinə məruz qalmış sahələrdə** hökumətin apardığı və vətəndaşlara yönələn **çox sektoral bərpa işlərinə**, o cümlədən minalardan təmizlənməyə və məcburi köçkünlərin qayıtmasına verdiyi dəstəyin artırılması, eləcə də beynəlxalq maliyyə təsisatları ilə tərəfdaşlığın gücləndirilməsi imkanlarını araşdıracaq. Tərəfdaşlarla, o cümlədən vətəndaş cəmiyyəti və inkişaf tərəfdaşları ilə işləyərək, BMT **Qadınlar, Sülh və Təhlükəsizliyə dair Milli Tədbirlər Planının** yekunlaşdırılması və qəbul edilməsində hökumətə öz dəstəyini davam etdirəcək. Qadınlar və gənclərin iştirakı ilə inklüziv sülhə yönələn dialoqun dəstəklənməsi çox saylı maraqlı tərəflərlə davam edəcək.

BMT DİM-lərə aid məlumatların toplanması və təhlilini təkmilləşdirmək, eləcə də 2022-ci il üçün planlaşdırılmış **Çoxgöstəricili Klaster Sorğusunu (MİCS)** həyata keçirmək üçün hökumətə birgə dəstək verəcək. Bundan əlavə, DİM-lər üzrə məlumatlarla bağlı geniş tərəfdaşlıq imkanları davamlı şəkildə araşdırılacaq.

BMT "İnkişaf məsələlərinə aid maliyyələşmənin" qiymətləndirilməsi vasitəsilə DİM-lərin maliyyələşdirilməsinin hərtərəfli təhlilinə əsaslanaraq, **Vahid Milli Maliyyələşmə Çərçivəsinin** hazırlanması üçün hökumətə birgə dəstəyini davam etdirəcək. Həmin Vahid Çərçivə Azərbaycanda DİM-lərin maliyyələşdirilməsinə mövcud maneələrin aradan qaldırılması və planlaşdırma proseslərinin gücləndirilməsinə töhfə verəcək.

Nəhayət, 2022-ci ildə **Azərbaycanın BMT-yə üzvlüyünün 30-cu ildönümü** qeyd olunacaq. Üç onillik ərzində, bu münasibətlər yardıma əsaslanan əməkdaşlıqdan tərəfdaşlıq üzərində qurulmuş iş birliyinə çevrilib. BMT Xartiyasında əks olunmuş ortaq dəyərlərə, Dayanıqlı İnkişafa aid 2030-cu il Gündəliyinə və Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq, BMT-nin Azərbaycandakı nümayəndəliyi tərəfdaşlığın daha da gücləndirilməsi üçün yeni imkanlar araşdıracaq.

# İXTİSARLAR SİYAHISI

| | |
|---|---|
| QQAK | "Qadınlara qarşı ayrı-seckiliyin butun formalarının ləğv olunması haqqında" Konvensiya |
| MDB | Müstəqil Dövlətlər Birliyi |
| VCT | Vətəndaş Cəmiyyəti Təşkilatı |
| Aİ | Avropa İttifaqı |
| FAO | BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı |
| GBQS | Gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi |
| MK | Məcburi köçkünlər |
| BƏT | Beynəlxalq Əmək Təşkilatı |
| BMqT | Beynəlxalq Miqrasiya Təşkilatı |
| M&Q | Monitorinq və Qiymətləndirmə |
| AM | Anlaşma Memorandumu |
| MKOS | Mikro, kiçik və orta sahibkarlıq subyektləri |
| MMT | Milli səviyyədə müəyyən edilmiş töhfələr |
| QHT | Qeyri-hokumət təşkilatı |
| BMT İHAK | BMT-nin İnsan Huquqları uzrə Ali Komissarlığı |
| CİSİQ | Cinsi istismarın və sui-istifadənin qarşısının alınması |
| RƏO | BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi |
| DİM | Dayanıqlı İnkişaf Məqsədləri |
| UNCG | BMT-nin Kommunikasiya Qrupu |
| BMTİÖH | BMT-nin Ölkə üzrə İdarə Heyəti |
| BMTİP | BMT-nin İnkişaf Proqramı |
| UNDRR | BMT-nin Fövqəladə Halların Azaldılması Ofisi |
| UNECE | BMT-nin Avropa üzrə İqtisadi Komissiyası |
| UNESCO | BMT-nin Təhsil, Elm və Mədəniyyət Məsələləri üzrə Təşkilatı |
| UN-HABITAT | BMT-nin Yaşayış Məntəqələri üzrə Proqramı |
| BMTQAK | BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı |
| UNİC | BMT-nin İnformasiya Mərkəzi |
| UNİCEF | BMT-nin Uşaq Fondu |
| UNİDO | BMT-nin Sənaye İnkişafı Təşkilatı |
| UNFPA | BMT-nin Əhali Fondu |
| BMTGBQSQ | BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Artırılması Qurumu |
| UNOPS | BMT-nin Layihə Xidmətləri Ofisi |
| UNODC | BMT-nin Narkotiklər və Cinayətkarlıqla Mübarizə İdarəsi |
| BMTDİƏÇ | BMT-nin Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə sənədi |
| UNV | BMT-nin Könüllülər Proqramı |
| ÜST | Ümumdünya Səhiyyə Təşkilatı |



*UNFPA xüsusi tədbirlər və maraqlara uyğun kurslar vasitəsilə fəal və sağlam həyat tərzi naminə yaşlı insanlara dəstək verir.*

*© UNFPA/ 2021*

BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi
BMT-nin 50 illiyi küçəsi, 3
AZ 1001 Bakı, Azərbaycan
Tel.: (+99412) 4989-888
www.azerbaijan.un.org

UNinAzerbaijan    un_azerbaijan    @UNinAzerbaijan    TheUNAzerbaijan